# “PRO MART” Məhdud Məsuliyyətli Cəmiyyəti

**Konsolidə olunmuş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

31 dekabr 2022-ci il tarixinə bitən il üzrə

MÜNDƏRİCAT

**Səhifə**

31 DEKABR 2022-Cİ İL TARİXNDƏ BİTƏN İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI ......... 2

MÜSTƏQİL AUDİTORUN HESABATI ........................................................................ 3-4

31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI:

Konsolidə edilmiş Maliyyə vəziyyəti haqqında hesabat........................................ 5
Konsolidə edilmiş Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat ........................ 6
Konsolidə edilmiş Kapitalda dəyişikliklər haqqında hesabat........................................ 7
Konsolidə edilmiş Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........................................ 8
Konsolidə edilmiş Maliyyə hesabatlarına dair qeydlər ........................................ 9-37

# MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏT BƏYANI

## 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ

Bu bəyannamə "Pro Mart" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Cəmiyyət") və onun törəmə müəssisələrinin ( birlikdə Qrup) Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı Cəmiyyətin rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2022-ci il tarixində bitən il üzrə Cəmiyyətin maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə əməliyyatların nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") uyğun maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS əsasında hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyətin işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Mühasibat uçotunun Cəmiyyətin fəaliyyət göstərdiyi ölkədə qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə hesabatları 14 aprel 2023-ci il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərlik adından:**

| | |
|---|---|
| **Ramil Məmmədov** | **Ağası Səfərov** |
| **Direktor** | **Baş Mühasib** |
| 14 Aprel 2023 -cü il | 14 Aprel 2023 -cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

"Pro Mart" Məhdud Məsuliyyətli Cəmiyyətinin Rəhbərliyinə:

**Rəy**

Biz "Pro Mart" Məhdud Məsuliyyətli Cəmiyyətinin və onun törəmə müəssisələrinin 31 dekabr 2022-ci il tarixində bitən il üzrə təqdim edilən konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə bitən illər üzrə konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, konsolidə edilmiş kapitalda dəyişikliklər və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə edilən maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə bitən illər üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli əks etdirir.

**Rəy üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətin asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri verilmiş şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin mövcud olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

---

"The Vvay Partners İnternational Consulting" Məhdud Məsuliyyətli Cəmiyyəti

Kamal Rafiq oğlu Hüseynzadə
Direktor
14 aprel 2023-ci il
Bakı, Azərbaycan Respublikası

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən edilmiş uçot təxminlərinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edimosinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında qənaətə gəldiyimiz halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqəti cəlb etməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın təqdim edilməsi tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

---

"The Vvay Partners İnternational Consulting" Məhdud Məsuliyyətli Cəmiyyəti

Kamal Rafiq oğlu Hüseynzadə
Direktor

14 aprel 2023-ci il
Bakı, Azərbaycan Respublikası

**"PRO MART" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**
**KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İLLƏR ÜZRƏ**

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 7 | 5,512,063.06 | 5,054,053.03 |
| Qeyri-maddi aktivlər | 8 | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **5,512,063.06** | **5,054,053.03** |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları | 11 | 22,026,737.17 | 23,115,012.04 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 1,350,942.02 | 3,589,299.90 |
| Ticarət və digər debitor borcları | 13 | 9,622,363.30 | 2,599,761.55 |
| Əlaqəli tərəflərdən debitor borcları | | | |
| Gələcək dövrün xərcləri | | 1,501,233.37 | 1,501,233.37 |
| Digər aktivlər | 14 | 12,959,778.18 | 14,135,702.87 |
| **Cəmi cari aktivlər** | | **47,461,054.04** | **44,941,009.73** |
| **Cəmi aktivlər** | | **52,973,117.10** | **49,995,062.76** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | | 11,721,198.61 | 11,693,780.65 |
| Hesabat dövrünün xalis mənfəəti/zərəri | | 27,417.96 | 14,222.54 |
| Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət | | 210,780.65 | 196,558.11 |
| **Cəmi kapital** | | **11,721,198.61** | **11,693,780.65** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Bankdan alınmış kreditlər | 15 | 7,833,360.55 | 6,106,250.00 |
| Səhmdarın adından bankdan alınmış kreditlər | 16 | | |
| İcarə öhdəlikləri | 10 | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **7,833,360.55** | **6,106,250.00** |
| **Cari öhdəliklər** | | | |
| Bankdan alınmış kreditlər | 15 | | 0 |
| Səhmdarın adından bankdan alınmış kreditlər | 16 | | |
| Digər öhdəlikləri | 17 | 15,708,049.44 | 15,832,113.11 |
| Vergi ehtiyatı | | | |
| Alınmış avanslar | 19 | 426,841.44 | 426,841.44 |
| Büdcə öhdəlikləri | 18 | | |
| İcarə öhdəlikləri | 10 | | |
| Ticarət və digər kreditor borcları | 19 | 17,283,667.06 | 15,936,077.56 |
| Əlaqəli tərəflərə olan öhdəliklər | | | |
| **Cəmi cari öhdəliklər** | | **33,418,557.94** | **32,195,032.11** |
| **Cəmi öhdəliklər** | | **41,251,918.49** | **38,301,282.11** |
| **Cəmi öhdəliklər və kapital** | | **52,973,117.10** | **49,995,062.76** |

**“PRO MART” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**
**KONSOLİDƏ EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İLLƏR ÜZRƏ**

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Gəlirlər | 20 | 141,025,879.78 | 109,630,517.90 |
| Maya dəyəri | 21 | -127,271,274.47 | -99,444,673.96 |
| Məcmu mənfəət | | 13,754,605.31 | 10,185,843.94 |
| Marketinq və satış xərcləri | 21 | -429,352.56 | |
| Ümumi və inzibati xərclər | 21 | -13,290,980.30 | -10,168,065.76 |
| Məzənnə fərqindən zərər | | - | |
| Digər gəlirlər | 22 | - | |
| Əməliyyat gəliri | | 34,272.45 | 17,778.18 |
| Vergi xərcləri | 21 | 6,854.49 | 3555.636 |
| Vergidən əvvəlki gəlir/(zərər) | | | |
| Mənfəət vergisi xərci | | - | |
| İl üzrə mənfəət/(zərər) | | 27,417.69 | 14,222.54 |

Rəhbərlik adından:

Ramil Məmmədov
Direktor

12 Aprel 2023 -cü il
Bakı, Azərbaycan Respublikası

Ağası Səfərov
Baş Mühasib

12 Aprel 2023 -cü il
Bakı, Azərbaycan Respublikası

**"PRO MART" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**
**KONSOLİDƏ EDİLMİŞ KAPİTAL DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İLLƏR ÜZRƏ**

| | Nizamnamə kapitalı | Ödənilmiş dvidend məbləğ | Yığlmış Mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 DEKABR 2021-ci il** | 11,693,780.65 | | **14,222.54** | **11,708,003.19** |
| İl üzrə mənfəət | - | | 27,417.96 | |
| Ödənilmiş dvidend | - | | - | |
| **31 dekabr 2022-ci il** | 11,693,780.65 | **14,222.54** | **41,640.50** | 11,721,198.61 |

**Rəhbərlik adından:**

"PROMART"
Azərbaycan Respublikası
Məhdud Məsuliyyətli Cəmiyyəti
Limited Liability Company
Azerbaijan Republic

**Ramil Məmmədov**
**Direktor**

14 Aprel 2023 -cü il
Bakı, Azərbaycan Respublikası

**Ağası Səfərov**
**Baş Mühasib**

14 Aprel 2023 -cü il
Bakı, Azərbaycan Respublikası

**"PRO MART" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ KOSNOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT (DOLAYI METOD) 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İLLƏR ÜZRƏ**

| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | 2022-Cİ İL ÜZRƏ | 2021-Cİ İL ÜZRƏ |
|---|---|---|
| Hesabat dövrü üzrə xalis mənfəət | 27,417.96 | 14,222.54 |
| Düzəlişlər: | 0 | |
| Aktivlər üzrə hesablanmış amortizasiya | 0 | |
| Pul üzrə ehtiyat | | 3,589,299.90 |
| **Düzəlişdən sonrakı pul vəsaitlərinin hərəkəti** | **27,417.96** | 3,603,522.44 |
| Debitor borcların artması (azalması) | 7,022,601.75 | 1,621,145.15 |
| Material ehtiyatlarının artması (azalması) | -1,088,274.87 | |
| Gələcək dövrün xərcləri artması (azalması) | 0 | |
| Digər qısa müddətli aktivlərin artması (azalması) | -1,175,924.69 | |
| Gudvilin artması (azalması) | 0 | |
| Alınmış avansların artması (azalması) | 0 | |
| Vergi və sair məcburi öhdəliklərin artması (azalması) | 0 | |
| Kreditor borcların artması (azalması) | 1,347,589.50 | 15,396,156.61 |
| Gələcək dövrün gəlirlərinin artması (azalması) | 0 | |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin xalis hərəkəti** | 6,105,991.69 | 17,017,301.76 |
| ***İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti*** | 458,010.03 | 311,667.75 |
| Bina,Torpaq,tikili və qurğular əldə edilmişdir | 0 | |
| Maşın və avadanlıqlar əldə edilmişdir | 192,557.41 | 311,667.75 |
| Nəqliyyat vasitəsi əldə edilmişdir | 6,355.94 | |
| Hesablama texnikası əldə edilmişdir | 151,980.23 | |
| Digər əsas vəsaitlər əldə edilmişdir | 107,116.45 | |
| Qeyri-maddi aktiv əldə edilmişdir | 0 | |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin xalis hərəkəti** | | |
| **Maliyyələşmə üzrə pul vəsaitinin xalis hərəkəti** | | |
| Pul vəsati və onun ekvivalentlərinin ilin əvvəlinə qalığı | 3,589,299.90 | 12,765,363.22 |
| İl ərzində pul vəsaitlərinin artması (azalması) | -2,238,357.88 | -9,176,063.32 |
| Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri | 0 | |
| **Bank overdraftı çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalığı** | **1,350,942.02** | **3,589,299.90** |

AZƏRBAYCAN RESPUBLİKASI · Məhdud Məsuliyyətli Cəmiyyəti · INTERNATIONAL CONSULTING · Liability Company · REPUBLIC

## 1. CƏMİYYƏT VƏ ONUN FƏALİYYƏTİ

Bu konsoliidə edilmiş maliyyə hesabatları 31 dekabr 2022-ci il tarixində bitən il üzrə "Pro Mart" Məhdud Məsuliyyətli Cəmiyyəti və onun törəmə müəssisəsi (birlikdə Qrup adlanacaq) üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmışdır. Cəmiyyət Azərbaycan qanunvericiliyinə uyğun olaraq 2017-ci il 16 Noyabr tarixində İqtisadiyyat Naziyliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində qeydiyyatdan keçmişdir.

**Cəmiyyətin rəsmi ünvanı:** AZ1040, Bakı şəhəri,Sabunçu rayonu, Bəşir Bünyadov küçəsi(Bakıxanov Qəs), ev 134

31 dekabr 2022-ci il tarixinə Cəmiyyət iştirakçısının nizamnamə kapitalındakı payı aşağıdakı kimi müəyyən edilmişdir.

| Səhmdar | 31 dekabr 2022-ci il, % |
|---|---|
| AZ FAST MOVİNG BUSİNESS MMC | |
| (100% Yüklülük) | 50% |
| UNİTRADE GROUP MMC | 50% |
| (100% Yüklülük) | |

Cəmiyyətin qanuni təmsilçiliyi **Ramil Məmmədov Əşrəf** oğluna məxsusdur.

"PROMART" MMC bir törəmə müəssisəsi var.

- BOLMART MMC (VÖEN 17030005121) 100%

**Rəhbərlik adından:**

| | |
|---|---|
| **Ramil Məmmədov**<br>**Direktor** | **Ağası Səfərov**<br>**Baş Mühasib** |
| 12 Aprel 2023 -cü il<br>Bakı, Azərbaycan Respublikası | 12 Aprel 2023 -cü il<br>Bakı, Azərbaycan Respublikası |